**Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 102 illiyi və AMEA Mərkəzi Elmi Kitabxanasının 100 illiyinə həsr olunmuş "Kitabxana-informasiya texnologiyalarının inkişafında müasir tendensiyalar" mövzusunda Respublika elmi konfransı haqqında**

Konfrans **23 may 2025-ci il tarixində AMEA-nın Mərkəzi Elmi Kitabxanasında** keçiriləcəkdir.

## *KONFRANSIN İSTİQAMƏTLƏRİ*

- Heydər Əliyev və Azərbaycanda kitab mədəniyyəti
- Rəqəmsal kitabxanaların formalaşdırılması və idarə olunması
- Elm-kitabxana-cəmiyyət qarşılıqlı əlaqədə
- Kitabxanalarda istifadəçi təcrübəsinin təkmilləşdirilməsi üçün innovativ yanaşmalar
- İnteraktiv multimedia və rəqəmsal sərgilərin təşkili

**Konfransın rəsmi dili:** Azərbaycan, rus, ingilis

**Konfrans materiallarının tərtibatına dair tələblər:**

Materiallar konfrasın elmi istiqamətlərinə uyğun olaraq tərtib edilməlidir. Microsoft Office Word proqramında A4 formatda, Times New Romanda - 12 şriftində (qara rəngdə), 1 intervalda yığılmalı, vərəqin sol kənarından 2,5 sm, sağdan 1,5 sm, yuxarıdan 3,0 sm, aşağıdan 2,5 sm boş sahə buraxılmalı, abzaslar 1,15 sm parametrlərinə uyğun olaraq yazılmalıdır.

Vərəqin baş tərəfində sağda müəllif(lər)in adı, atasının adı, soyadı (tam açıq şəkildə); elmi dərəcəsi, elmi adı; işlədiyi və təhsil aldığı elmi müəssisənin adı və ünvanı, müəllif(lər)in elektron poçt ünvanı (*email)* və əlaqə nömrəsi yazılmalıdır.

Konfrans materialının (məqalə və ya tezislərin) mətni 1-3 səhifə həcmində olmalıdır;
- mərkəzdə konfrans materialının adı 12 şriftlə, böyük qara hərflərlə yazılmalıdır.

Xülasə: 150 sözdən çox olmamalıdır, açar sözlər minimum 5 söz (Azərbaycan, rus və ingilis dillərində) olmalıdır. Hər bir xülasədə məqalənin adı və müəllif(lər)in tam adı göstərilməlidir.

Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə Ali Attestasiya Komissiyasının tələblərinə uyğun göstərilməlidir (istinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində göstərilir: məsələn, [5, s.32-43], [8]).

Konfrans materialları AMEA Mərkəzi Elmi Kitabxanasının mekkonfrans.az@gmail.com ünvanına təqdim edilməlidir.

Bir nəfərin müəllifliyi və ya həmmüəllifliyi ilə yalnız bir konfrans materialı qəbul edilir.

**Məqalələrin son göndərilmə tarixi: 25 aprel 2025-ci il**

**Qəbul bildirişi üçün son tarix: 05 may 2025-ci il**

Konfrans materialları jurnal formasında AMEA Mərkəzi Elmi Kitabxanasının rəsmi saytında yerləşdiriləcək, eləcə də çap formatında nəşr olunacaq.

Məqalənin (tezislərin) konfrans materiallarına daxil edilməsi müvafiq bölmələr tərəfindən müəyyənləşdiriləcəkdir. Zərurət yarandıqda bölmənin irad və qeydləri əsasında məqalənin (tezislərin) yenidən göndərilməsi istəniləcəkdir. Bölmənin irad və qeydləri qəbul edilmədikdə və düzəliş edilərək vaxtında göndərilmədikdə məqalə (tezislər) konfrans materiallarına daxil edilməyəcəkdir.

**Konfransın keçiriləcəyi ünvan:** AZ 1143, Hüseyn Cavid prospekti 129.

**Əlaqə telefonu:** (+994) 012-539-61-77
(+994) 050-386-40-87